# Müstəqillik dövrü Azərbaycanda plakatın inkişafının bədii xüsusiyyətləri

**Zeynəb Rüstəmova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** zikarustamova@gmail.com

**Rəyçilər:** s.ü.f.d., dos. S.Q. Sadıqov,
s.ü.f.d., dos. E.N. Musayeva

**Açar sözlər:** qrafika, plakat, təsvir, obraz, məişət
**Ключевые слова:** графика, плакат, изображение, быт
**Key words:** graphic, poster, picture, household

Azərbaycan plakatı bu sahədə zəngin ənənələrə və yüksək uğurlara malikdir. Ölkənin həyatını zamanın güzgüsü kimi əks etdirən Azərbaycan plakatı, cəmiyyətdə ictimai inkişafın gedişinin ona ayırdığı roldan asılı olaraq, öz inkişafında yüksəliş və tənəzzül dövrlərini keçmişdir. “Ölkənin inkişafının bütün sovet dövrü ərzində Azərbaycan plakatı siyasi təşviqatçı və təbliğatçı rolunu oynamışdır. Bu isə sərt ideologiyalı keçmişi olan plakatın siyasi-ideoloji xarakterini müəyyənləşdirmişdi” [1, s. 12].

Bu günki günümüzdə isə vəziyyət tamamilə başqadır. Ölkəmizin müstəqillik əldə etməsi çox partiyalılıq, bazar iqtisadiyyatının təşəkkülü plakatın inkişafı üçün yeni vəziyyət yaratmışdır. Ölkəmizdə yenidənqurmanın gərgin vaxtında dövlətin vaxtı keçmiş ideoloji strukturlarının dağılması nəticəsində, Azərbaycanın plakat sənəti “sahibsiz” qalır və yeni tarixini tək başına və “ağ vərəqdən” yazmağa məcbur qalır. Yeni müstəqil dövlətin qurulmasında plakata yer yox idi, buna görə də plakatın tənəzzülə uğraması ona ehtiyacının olmaması təhlükəsi yaranırdı. Bunun nəticəsində plakatçı rəssamlar əsl sənətin başqa sahələrinə “keçməyə” başladılar. Təsviri incəsənətin başqa sahələri siyasətdən uzaq olduqlarına görə öz nüfuzlarını plakata nisbətən daha çox qoruyub saxlamışdılar və onlara ehtiyac da var idi. Müasir dövrdə plakat yeni məna kəsb etməli idi. Bu gün inamla demək olar ki, Azərbaycan plakatı yeni nəfəs aldı, onun professional səviyyəsi artdı, müasir Azərbaycan plakatının mövzusu genişləndi. Reklam plakatları yenidən meydana gəldi, bir sıra parlaq əsərlər yarandı. Plakatçı rəssamlarının “Azərbaycan bu gün” müsabiqəsinə təqdim olunmuş işləri 10 il ərzində plakatın inkişafının obyektiv mənzərəsini əks etdirirdi.

Bakı İncəsənət Mərkəzinin Yunokol Xəzər Amerika neft kompaniyası ilə birgə təşkil etdiyi birinci plakat müsabiqəsi 1994-cü ildə keçirilmişdir. Təzəlikcə müstəqillik qazanmış dövlətdə hələ də yeni ilə köhnə arasında mübarizə davam edirdi, Qarabağ problemi beynəlxalq problemə çevrilirdi. Bu vəziyyətdə isə müstəqillik və milli vəhdət ideyası millətin birliyi üçün tək amil idi.

Fikrin lakonikliyi və ifadə tərzinin orijinallığı ilə diqqəti cəlb edən plakatlardan biridə rəssam Fikrət Ələkbərovun “Müstəqillik cücərtisi” plakatı oldu. Plakatda dəmir-beton konstruksiyası içindən zorla çıxan zərif “müstəqillik cücərtisi”ni bədii əks edir. Lakin dəqiqliklə baxanda anlaşılır ki, çiçək silahın optik nişangahı altındadır, müstəqilliyimizə olan təhlükəni plakat aydın şəkildə büruzə verir. Həmçinin plakatçı rəssam Haşım Elçiyevin “Ermənistanla bizim xüsusi münasibətimiz var” plakatı da xüsusilə maraqlıdır. Bu plakatda isə quyruğunda Rusiyanın bayrağı görünən iri köpək balığı və bu köpək balığının qarnı və

müdafiəsi altında üzən balaca bir balıq təsvir olunmuşdu. Bu balaca balığın bədənindəki rəngli zolaqlar isə onun Rusiyanın himayəsi altındakı kiçik Ermənistanın rəmzi olduğuna heç bir şübhə yeri qoymur.

Plakatçı rəssam Haşım Elçiyevin nikbin və parlaq əsəri — məşhur həmvətənimiz, caz musiqisi bəstəkarı Vaqif Mustafazadənin (1940-1979) yubileyinə həsr edilmiş plakatı və "Lissabon sammiti, 96" adlı plakatı Qarabağın taleyinin həll olunduğu məşhur toplantıya həsr edilmişdir.

1998-ci ildə, 1918-ci ildə yaradılmış və bolşevik işğalı nəticəsində müstəqilliyini itirənə qədər, 22 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası üçün yubiley ili idi. Bu ilin maraqlı plakatları arasında Cabbar Qasımovun, ölkənin və onun mustəqilliyinin təcəssümü olan respublika prezidentinin 75 illik yubileyinə həsr olunmuş əsəri özünəməxsus yer tutur. Üçrəngli milli bayrağımızın fonunda prezidentin iri planda verilmiş siması onların ayrılmazlığının və müstəqilliyinin bərqərar olmasında Heydər Əliyevin rolunun rəmzidir.

1999-cu il XX əsrin son ili idi və Azərbaycan da digər ölkələr kimi yeni minilliyin astanasında dururdu. Xalqın ən yaxşı arzu və diləkləri yeni — XXI əsrlə bağlı idi. Bu isə öz əksini 1999-cu ilin ən yaxşı hesab edilən plakatlarında tapmışdır.

Siyasi və ictimai çevrilişlərlə zəngin XX əsrin son saniyələrini sayan saat ideyası, rəmzlərlə düşünən plakat rəssamları arasında çox populyar idi. Vüqar Əlinin "Yeni əsrə doğru" və Kirman Abdinin "Saatın əqrəbləri keçmiş ilə gələcəyi ayırır" plakatları bu ideyanı özünəməxsus tərzdə ifadə etməyin bariz nümunəsidir.

2000 ilin plakatları arasında mədəni irsin qorunub saxlanması və gələcək nəsillərə çatdırılmasının vacibliyi tematikası geniş şəkildə işlənilirdi. Bu baxımdan Mirazər Abdullayevin Bakının gələcəyinə nikbin ovqatla baxan "Dünən, bugün, sabah" adlı plakatı mövzu aktuallığına görə seçilir. Bu dövrün parlaq, canlı plakatları ölkənin mədəni həyatının müxtəlif sahələrinə, mədəni sərvətlərin qorunması işində meydana çıxan mənfi hadisələrə diqqəti cəlb edir. Lalə Ələsgərovanın "Kökümüzü qoruyaq" plakatı Bakının tarixi hissəsi olan "açıq səma altında muzey" elan olunmuş İçəri Şəhərin dekorativ silueti, plakatda yeni, simasız tikililərə, "oyuncaq evlərlə" doldurulmuşdur. Ancaq onlar oyun kartları ilə deyil, pul əskinazları ilə tikilmişdir. Pulun, qızılın mütləq hakimiyyəti qarşısında hətta tarixi abidələr belə davam gətirmir. Bu isə cəmiyyətin mənəvi əsaslarının dağıldığını nümayiş etdirir. Plakat qoruq şəhərində pulunun həddi-hüdudu olmayan "yeni azərbaycanlıların" villalarından ibarət tikililəri mübaliğəli şəkildə əks etdirir.

2002-ci ilin plakatları arasında müasir Azərbaycan gerçəkliyinin müxtəlif tərəflərini əhatə edən maraqlı plakatlar ilə qarşılaşırıq. Bu plakatların çoxu Qarabağ mövzusuna və mədəniyyət abidələrinin qorunmasına həsr olunmuşdu.

2002-ci ilin ən yaxşı plakatı Vüqar Əlinin Azərbaycan mədəniyyətinin beşiyi — Şuşaya həsr olunmuş plakatları hesab edilmişdi. Mirazər Abdullayevin, Etibar Nəzərovun və Ramil Əliyevin plakatları memarlıq abidələrinin acınacaqlı vəziyyətinə diqqəti cəlb edir.

2003-cü ildə Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə — respublikada Prezident seçkilərinin keçirilməsi ilə əlamətdar idi. Seçki kompaniyasında təbliğat plakatlarına mühüm yer ayrılmışdı. Rəssam B.Kərimovun hazırladığı plakatlar Azərbaycan respublikası prezidentliyinə namizəd İlham Əliyevin fəaliyyətinin hərtərəfli işıqlandırılmasına həsr edilmişdi. Bu plakatlar tematikasının müxtəlifliyi və rəngarəngliyi ilə seçilirlər. Burada qaçqınlar problemi, neft sənayesinin inkişafı, idman mövzusuna geniş yer verilmişdir. "Qüdrətimizin İlhamına səs verək", "Estafeti qəbul et! Estafet sənindir", "Peşəkar siyasətçi,

istedadlı təşkilatçı", "Qaçqınların problemi hamımızın problemidir", "İlhamlı sabaha, xoşbəxt gələcəyə səs verək!", "Müdrik atanın əzmkar davamçısı", "İlhamlı sabahımıza səs verək!", "Sabitliyin və tərəqqinin qarantı", "Neft milli sərvətimizdir", "Bakı-Ceyhan əsrin tikintisidir" plakatları seçiciləri birmənalı şəkildə İlham Əliyevə səs verməyə çağırır. Bu plakatlar arasında "Neft milli sərvətimizdir" plakatı orijinal kompozisiyasına və ifadə texnikasına görə xüsusilə seçilir. Rəssam bu plakatlarda müasir kompüter qrafikasının ən son nailiyyətlərindən bacarıqla istifadə edərək, baxımlı və maraqlı təbliğat plakatları yaratmağa müvəffəq olmuşdur. Bu plakatlar kompozisiya quruluşuna, işıq-rəng effektlərinə görə seçilirlər. Plakatlarda olan uğurlu tapıntılardan biri də prezidentliyə namizədin adından istifadə etməklə, plakatın təbliğ etdiyi ideyanın daha da gücləndirilməsidir.

Nəzərdən keçirdiyimiz dövr ərzində Azərbaycan plakatının tarixi yeni axtarış və orijinal tapıntılarla zənginləşmişdi. Bu dövrün plakatları daha kəskin, daha vacib və ağrılı problemləri qaldırması ilə fərqlənirlər. Bu isə incəsənətin bu növünün demokratik prosesin ayrılmaz tərkib hissəsi kimi bərqərar olmasına imkan yaradır.

**Məqalənin aktuallığı.** Müstəqillik dövründə respublikamızda plakatın inkişafının bədii xüsusiyyətlərinin öyrənilməsi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müstəqillik dövründə Azərbaycan plakatının mövzu rəngarəngliyindən söhbət açılır və bu, konkret nümunələrlə göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ибрагимов Т.И. Азербайджанский плакат: Автореф. канд. дис. Ташкент, 1992.

2. Гаджиев П. Азербайджанская Советская графика. Баку: изд-во АН Азербайджанской ССР, 1962.

3. Azərbaycan bu gün. Professional Azərbaycan plakatı (1994-2000). Müşayiətedici mətn T.İ. İbrahimov. Bakı: İncəsənət Mərkəzi, 2002.

4. Quliyev Rafiq. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı, 2013.

**З. Рустамова**

## Особенности развития плаката в период независимости Азербайджана

## Резюме

В статье упоминается о стадии развитии плаката в эпохи независимой Азербайджана. После приобретения Азербайджана второй независимости, жанр плаката, которая является неотъемлемой частью графического искусства продолжал развиваться. В этом направление наряду с молодыми творческими людьми неустанно принимали участие известные художники Советского времени создавая значительные произведения искусства. Среди этих художников мы можем отметить имена Паша Гаджиева, Газенфер Халыгова, Мир Азер Абдуллаева, Кирман Абдиева.

**Z. Rustamova**

# Independence period in Azerbaijan artistic features of poster development

## Summary

The article tells about the development stage of the posterity art in Azerbaijan during the period of independence. After the independence of Azerbaijan for the second time, the development stage of the placate genre, which is an integral part of the graphic art, has consistently developed. In this area, many young graphic artists have created valuable works of art in tune with painters who have achieved success in Soviet-era posters. We can emphasized names of Pasha Hajiyev, Gazanfar Khaligov, Mirazar Abdullayev, Kirman Abdin.

**Redaksiyaya daxil olub:** 25.02.2019